**UOT 327**

# REGİONAL GÜC OLARAQ İSRAİLİN ORTA ŞƏRQDƏKİ ROLU

**Bəxtiyar BƏDƏLOV**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 19 sentyabr 2022; çapa qəbul edilmişdir: 24 oktyabr 2022; online-da çap edilmişdir: 30 dekabr 2022

Received: 19th of September, 2022; accepted: 24th of October, 2022; published online: 30th of December, 2022

**Açar sözlər:** *Orta Şərq, İsrail, İranın 1979-cu il İnqilabı, İsrail və ABŞ münasibətləri, İsrail-Türkiyə münasibətləri, İsrail-körfəz ölkələri münasibətləri, Körfəz ölkələri, İsrail-İran münasibətləri, Səudiyyə Ərəbistan, təbii resurslar, neft, qaz*

## Giriş

Təbii resurslarla zəngin olan Orta Şərq regionu etnik mənsubiyyətlərin, dinlərin, məzhəblərin və rejim tiplərinin mürəkkəb qarışığından ibarətdir. Regionun iqtisadiyyatı təbii resurslara əsaslanır və bu iki fərqli kateqoriyaya bölünə bilər. Neft və təbii qaz ehtiyatları ilə zəngin olan körfəz ölkələri. Misir, İordaniya, Suriya, Livan, Fələstin, İsrail və Türkiyə kimi digər dövlətlər hansı ki, iqtisadiyyatı, əsasən, kənd təsərrüfatı və digər sahələrə əsaslanır. Bu dövlətlərin adambaşına düşən orta gəliri körfəz ölkələri ilə müqayisədə aşağıdır. Amma, İsrail və Türkiyə qeyri-neft ixracatçıları kateqoriyasında nisbətən daha yüksək mövqedə yer alır (14, s. 1-2).

Orta Şərq beynəlxalq sistemin ən dinamik və münaqişəli hissələrindən biridir (14, s. 1). Daxili iğtişaşlar, region daxili münaqişələr, qeyri-dövlət aktorların mövcudluğu və xarici qüvvələrin müdaxiləsi regionu daimi qeyri-sabitlik və münaqişə ocağına çevirir (10, s.789).

Orta Şərqdə ən böyük münaqişə ocaqlarından biri də bir çox ərəb xalqının qeyri-qanuni hesab etdiyi və fələstinlilərin hüquqlarını pozan İsrailin yaranmasıdır. İsrailin bir dövlət kimi Orta Şərqdə yaranması 1948, 1956, 1967 və 1973-cü illərdəki Ərəb-İsrail münaqişələri kimi əhəmiyyətli müharibələrə səbəb olmuşdur (1, s. 44).

İsrail mənşəyi, tarixi, dini, etnik mənsubiyyəti və sosial-iqtisadi kökləri baxımından bütün digər Orta Şərq dövlətlərindən fərqlənir. İsrail hələ də bir çox qonşuları tərəfindən sonradan "əkilmiş/yaranmış" ölkə kimi dəyərləndirilir və legitimliyi qəbul edilmir. İsrail ərazi və təbii resurslarla baxımından digər region ölkələrindən müqayisədə geri qalsa da texnoloji və təşkilati üstünlüyü baxımdan daha çox inkişaf edib. Eyni zamanda İsrail regionda yeganə nüvə silahına malik dövlətdir. İsrailin ABŞ ilə əlaqəsi onun regionda inkişaf etməsinə və regional gücə çevrilməsinə təkan verən əsas faktorlardandır (1, s. 44-45).

İsrailin region ölkələri ilə münasibətləri dolayı, gizli və bir çox hallarda qarşıdurma xarakterli hesab edilə bilər. Bəzi qonşu dövlətlərlə xüsusilə Misir və İordaniya ilə sülh müqavilələrin olmasına və eyni zamanda bir sıra digər ərəb ölkələri ilə qeyri-rəsmi təmaslarına baxmayaraq, qeyri qanuni dövlət kimi baxılırdı. İsrailin ərəb dünyası ilə gərgin

[*] *Bakı Dövlət Universiteti*
e-mail: badalovbakhtiyar@yahoo.com
orcid:0000-0003-2864-322X

münasibətləri onun Fələstin və fələstinlilərə qarşı strategiyası və həmçinin ərəb torpaqlarının işğalını davam etdirməsi ilə diktə olunur. Lakin bütün bunlara baxmayaraq, İsrail regionda çox güclü bir aktor olaraq qalır və son illərdə Fələstində, Livanda, Şərqi Afrikada, Suriyada öz hərbi gücünü nümayiş etdirməsi də bunu təsdiq edir (1, s. 43).

2009-cu ildən İsraildə formalaşan və sərtliyi ilə seçilən Netanyahu hökuməti “iki dövlətli həll” variantını açıq şəkildə rədd etməsi ərəblərin İsraillə uzun müddətdir davam edən fikir ayrılıqlarını həll etmək səylərinə kömək etmədi.

Region ölkələr ilə olan problemlər ilə yanaşı İsraili narahat edən digər əsas məsələ İranın nüvə proqramıdır. İranın nüvə silahına yiyələnməsi İsrailin bölgədəki nüvə inhisarına meydan oxuyur və potensial olaraq İsrailin özünün varlığını təhdid edir. İsrailin bu təhdidlə qarşı-qarşıya qalması və İranla çəkişməsi regional məsələdir və onun gərginləşməsi regional güc balansının sürətlə dəyişməsinə səbəb ola bilər (1, s. 43-45).

**İsrailin Orta Şərqdəki əlaqələri**

Orta Şərq regionunda son illərdə əsaslı dəyişikliklərin şahid oluruq. Bu xüsusən də ərəb baharının nəticələrindən və İbrahim sazişlərinin imzalanmasından sonra daha intensiv hala çevrilib. Regionda baş verən geosiyasi proseslər İsrail üçün Qərbdə Şimali Afrika, Şərqdə Ərəbistan yarımadası və İsrail, Misir və İordaniya ilə sülh şəraitində olan qonşu dövlətlər də daxil olmaqla daha geniş regionla münasibətlərin yeni çərçivəsinin yaradılmasından xəbər verir (17).

***İsrail-Misir və İordaniya münasibətləri:*** İsrail müstəqilliyini 1948-ci ildə elan etdikdən sonra onun regionda mövcudluğunu qəbul etməyən qonşu ərəb ölkələri ilə bir sıra müharibələr baş verdi. İsrailin regionda müstəqilliyini tanıyan və 1979-cu ildə sülh saziş imzalayan ilk regional ölkə Misir oldu. Əlbəttə ki, bu sülh müqaviləsinin şərtlərindən biri olaraq İsrail 1967-ci ildə ələ keçirdiyi Sinay yarımadasını geri qaytarmağa razı oldu. Lakin bu regionda Misirin digər ərəb ölkələri ilə münasibətinə ciddi təsir etdi və Ərəb Liqası cavab olaraq Misirin üzvlüyünü dayandırdı ( 4, s. 220-222)

İordaniya regionda İsraili tanıyan və 1994-cü ildə sülh müqaviləsi imzalayan ikinci ölkə oldu. Müqavilə qismən İordaniya üçün İsrail və ABŞ-a qarşı iqtisadi və ticarət stimulları üzərində qurulmuşdu. Bu günə qədər İordaniya və Misir ərəb dünyasında İsrailin fəal diplomatik əlaqələr saxladığı yeganə iki ölkə olaraq qalır. Buna görə də İordaniya İsrail üçün regionda mühüm müttəfiqdir. İordaniyanın İsrail ilə diplomatik əlaqələri qurmasına baxmayaraq, İordaniya xalqının dəstəyi yoxdur (2, s. 6, 23).

***İsrail-Mərakeş və Tunis münasibətləri:*** Mərakeşin və Tunisin İsrail ilə rəsmi sülh müqaviləsi olmasına baxmayaraq, ölkələr arası münasibətlər nisbətən sabit olaraq qalır. İsraillilər İsrail pasportu ilə Mərakeş və Tunisə səyahət edə bilərlər. 1948-ci ilə qədər bir çox Orta Şərq və Şimali Afrika ölkələrində, o cümlədən Mərakeş və Tunisdə güclü yəhudi icmaları var idi. Bu İsrailin dövlətinin qurulmasından və onların İsrailə kütləvi köçündən sonra dəyişdi. Mərakeş və Tunis əsilli bir çox israillilər bu ölkələrlə mədəni yaxınlığı qoruyub saxlayırlar (18).

***İsrail-Körfəz ölkələri münasibətləri:*** İsrail qurulduğu zaman ərəb ölkələri onun müstəqilliyini tanımamasına baxmayaraq, son illərdə Körfəz Əməkdaşlıq Şurasının (KƏŞ) üzvü olan bəzi dövlətlərlə birbaşa əlaqələrə malikdir. Oman və Qətər 1996-cı ildə paytaxtlarında ticarət ofisləri yaradaraq İsraillə birbaşa ticarət əlaqələri quran ilk ölkələr olub. 2020-ci ildən İsrailin Birləşmiş Ərəb Əmirlikləri və Bəhreynlə münasibətlərində normallaşması daha geniş müşahidə olunmağa başladı. 2020-ci ildə Vaşinqtonda keçirilən rəsmi mərasimdə İsraillə münasibətləri normallaşdıran BƏƏ və Bəhreyn İbrahim sazişləri kimi tanınan ümumi sülh müqaviləsini imzaladılar. Bu razılaşmalar 1967-ci ildə İsrail tərəfindən işğal edilmiş torpaqlar müqabilində sülh prinsipinə əsaslanan İsrail-Misir (1978) və ya

İsrail-İordaniya (1994) sülh sazişlərindən tamamilə fərqlidir. İbrahim razılaşmalarında Fələstin məsələsinə böyük diqqət yetirilmir. Bu iki körfəz ölkəsini İsrailə yaxınlaşdıran əsas amillər kimi iqtisadi, strateji maraqlar və İrandan gələn təhlükəsizlik maraqlarıdır (18).

İranın artan nüfuzu İsrail və BƏƏ, Bəhreyn və Səudiyyə Ərəbistanı da daxil olmaqla bir sıra Körfəz Əməkdaşlıq Təşkilatının üzvləri tərəfindən ən aktual təhlükə kimi qiymətləndirilir. Bu İsraillə Körfəz ölkələri arasında yaxınlaşma üçün münbit zəmin yaratdı.

Səudiyyə Ərəbistan rəhbərliyinin İsrail ilə münasibətlərin normallaşmasında yanaşmalar fərqlidir. Kral Salman 1967-ci ildə İsrail tərəfindən işğal olunmuş ərazilərin müqabilində sülh prinsipinə riayət etməyi seçdiyi halda, onun varisi Məhəmməd Bin Salman (MBS) daha əlverişli ritorikaya üstünlük verir. MBS İsrail və sülh yolu ilə həll tapmaq üçün hər hansı siyasi iradədən daha çox iqtisadi və texnoloji əməkdaşlığa üstünlük verir (5, s. 1-10).

***İsrail -İran münasibətləri:*** 1979-cu il inqilabından əvvəl İsrail və İran münasibətləri olduqca yaxın idi. İran şahının devrilməsindən və hazırkı teokratik hökumətin yüksəlişindən sonra hər şey tamamilə dəyişdi. İran Orta Şərqdə ABŞ-dan aldığı dəstək sayəsində az qala regional super gücə çevrilən İsraili düşməni kimi görür. İsraili şeytan adlandırır və onun məhv edilməli olduğunu müdafiə edir. İran İsrailin mübarizə apardığı Hizbullah və Həmas kimi təşkilatların ən böyük dəstəkçilərindən biridir. Son zamanlar İran Suriya və İraqla sıx əlaqələr qurmağa çalışır. İran bilir ki, regional güc mövqeyini inkişaf etdirmək üçün həm ərəb dünyasında, həm də İslam dünyasında daha təsirli olmalıdır.

İranın bölgədəki ən mühüm və güclü müttəfiqi Rusiyadır. Enerji resursların ixracatında Rusiya və İran rəqib ölkələrdir. Xəzərin statusu və enerji resurslarının bölüşdürülməsi haqqında da fərqli düşünürlər. Buna baxmayaraq, iki ölkənin yaxın əlaqələri Tehranın regional gücə çevrilməsində mühüm rol oynayır (3, s. 44)

***Türkiyə-İsrail münasibətləri:*** Soyuq müharibənin bitdiyi dövrdən bu yana Türkiyənin İsrail ilə yaxşı strateji əlaqələri vardır. Bildiyimiz kimi, soyuq müharibədən sonrakı dövrdə Türkiyə, İsrail və ABŞ münasibətlərində inkişaf tendensiyası müşahidə olunmuşdur. Eyni zamanda, Vaşinqton da Türkiyə-İsrail münasibətlərinin inkişafında əhəmiyyətli rol oynamışdır. İsrail üçün müsəlman ölkəsi olan Türkiyə ilə siyasi və hərbi ittifaqa daxil olması həm təhlükəsizlik baxımından həm də müsəlman ölkələrin üstünlük təşkil etdiyi bölgədəki təcridini azaltması baxımından olduqca vacib idi. İki ölkə arasında inkişaf edən bu münasibət əlbəttə ki, qarşılıqlı gözləntilərə əsaslanırdı. Terrorizm Türkiyə və İsrail üçün ortaq bir təhdid olaraq qəbul edilmiş ən yüksək gözləntilərdən idi. Hər iki ölkə terrorizmə qarşı mübarizə aparmaq üçün əməkdaşlıq edə biləcəklərini düşünürdü. Digər tərəfdən, Türkiyə də Vaşinqtondakı yəhudi lobbisindən faydalanmaq və dəstəklənmək istəyirdi. Münasibətlər sürətlə inkişaf etdi və strateji ittifaqa və əməkdaşlığa çevrildi (7).

Türkiyənin 2008-ci ildə İsrail ilə ərəb ölkələri arasında vasitəçi rolunu oynadığı da müşahidə edilirdi. İsrail, Suriya və Fələstin birbaşa danışıqlarda iştirak etmək istəmir və Türkiyə vasitəsilə danışıqlar aparırdı. Buna baxmayaraq, bu danışıqlardan nəticələr əldə edilmədən 2008-2009 İsrail-Qəzza münaqişəsi başladı və danışıqlar dayandı. Mülki şəxslərin Qəzza hücumundakı itkisi Türkiyə ilə İsrail arasındakı münasibətləri mənfi təsir etdi. Davos iqtisadi forumundan sonra Türkiyə-İsrail münasibətləri gərginliyin pik həddinə çatmış və bu zamandan bəri iki ölkə arasında münasibətlər normal səviyyəyə gəlməmişdir (16).

Bütün bu problemlərə baxmayaraq, İsrail, Türkiyə kimi bir müsəlman müttəfiqini itirmək istəmir. Ankara ilə münasibətlərin normallaşmasını gözləyir. İki ölkə arasındakı münasibətlər hələ də davam edir. Türkiyə Orta Şərq sülh prosesində vacib oyunçudur və İsrail gerçəkliyi bilir. Beləliklə, münasibətlərdəki davamlılığın gələcəkdə də müşahidə ediləcəyi güman edilir, baxmayaraq ki, dostluq əlaqələrinin əvvəlki səviyyəsinə qayıda bilməsi o qədər də real görünmür (9).

**İsrailin Orta Şərqdəki rolunu dəstəkləyən amillər**

İsrailin Amerika Birləşmiş Ştatları ilə müttəfiqliyi regiondakı bütün ittifaqlardan daha böyük görünür. ABŞ İsraili uzun müddətdir ki, maliyyə və həmçinin müdafiə texnologiyaları ilə təmin edir. İsrailin Orta Şərqdə mövcudluğu ABŞ üçün xüsusi əhəmiyyət kəsb edir (15).

ABŞ 1948-ci ildə İsrailin müstəqilliyini tanıyan ilk dövlət olmuşdur. Həmçinin İsraili "əsl dost" adlandıran ABŞ 2017-ci ildə Qüdsü onun paytaxtı kimi tanıyan ilk ölkə olub (13, s. 1-5). Orta Şərqdə ABŞ-ın böyük tərəfdaşı olan İsraili ona bağlayan əsas öhdəliklər demokratiya, iqtisadi tərəqqi və regional təhlükəsizlikdir.

ABŞ-ın regionda əsas prioritetlərdən biri İsrail-Fələstin münaqişəsinin hərtərəfli və davamlı həll olunmasına dəstək olmaqdır. Birləşmiş Ştatlar həmçinin İbrahim razılaşmalarını dəstəkləyir hansı ki, bu razılaşma İsrail ilə Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Mərakeş və Sudan arasında münasibətlərin normallaşdırmasından bəhs edir. ABŞ, İsrail ilə müsəlmanların çoxluq təşkil edən ərəb dövlətləri arasında əməkdaşlığın artırılması və əlaqələrin normallaşdırılmasını dəstəkləyir (9).

İsrailin Orta Şərqdəki rolunu dəstəkləyən ikinci əsas amil İran faktorudur. Bu həmçinin İsrail ilə digər körfəz və ərəb ölkələrinin bir araya gəlməsinə təkan verən amillərdəndir. İran İsrailin əsas tənqidçisi və rəqibi olub Qəssam Briqadası (Həmasın silahlı qanadı) və Hizbullah kimi müxtəlif anti-İsrail qruplarını maliyyələşdirir. Körfəz və ərəb ölkələrinin İrana qarşı çıxması isə İranın İslam ölkələrində inqilab ixrac etmə və kral ailələrini İslam monarxiyası ilə əvəz edilməsi ritorikasından qaynaqlanır. İranın bu ritorikası İsrail və körfəz ölkələri ilə ittifaqın əsas dayaqlarından birinə çevrilib.

Qeyd olunduğu kimi, İran-İsrail münasibətlərinin gərginləşməsi 1979-cu il inqilabından sonra başlamışdır. İnqilabdan öncə iki ölkə arasında münasibətlər müsbət dinamikada inkişaf etmişdir. Şah rejiminin hakimiyyəti dövründə, xüsusən də Şah Rza Pəhləvinin dövründə İran-İsrail münasibətləri strateji müttəfiqlik səviyyəsinə qədər yüksəlmişdir (6). Lakin inqilabdan sonra hakimiyyətə gələn dini rejim İsrail ilə olan münasibətləri sonlandırdı və hətta İsrail Orta Şərqdə İranın əsas düşməninə çevrildi. Yeni rejim İranın daxili və xarici siyasət kursunu yenidən formalaşdırdı. Yeni xarici siyasətdə İsrailə qarşı olan düşmənçilik ideyaları heç də gizlətməyə çalışılmadı (8, s. 442-446).

İsrail İranın regional təsirinin, həmçinin də İranın nüvə silahı əldə etməsinin qarşısını almağa çalışır. İsrailin bu siyasət qərb tərəfindən dəstəklənir (12, s. 12).

Digər bir faktor isə etnik və ideoloji cəhətdən fərqli qeyri dövlət aktorlarının regionda böyüməsidir. Bu cür qrupların mövcudluğu Orta Şərq ölkələrinin dövlət quruluşu üçün birbaşa təhlükədir. Danılmaz faktdır ki, bu qruplar bölgəyə müxtəlif yollarla təsir edə bilər və nəticədə regionun siyasətini dəyişə bilər (14, s. 10).

**İsrailin üçün regionda əsas maneələr**

Regionda əsas güclərdən biri olaraq İsrailin artan nüfuzuna baxmayaraq, hələ də əldə etməli olduğu mühüm mərhələlər var ki, onlar olmadan onun regional siyasətdə əsas oyunçu kimi qəbul edilmiş sayılmaz. İsrailin legitmliyinin region ölkələri tərəfindən tanınması əsas və ən mühüm faktordur. Regionda İsrailin qeyri-qanuni dövlət olduğunu dair irəli sürülən əsas ittihamlar aşağıdakılardan ibarətdir: İsrail qeyri-qanuni "müstəmləkəçi" dövlət olması, İsrail öz dövlətçiliyini qanunsuz olaraq təmin etməsi, İsrail aparteid dövlət olması və s. (15, s. 159-161).

İsrail özünün Orta Şərq regionunda mövcudluğunun qanuni olduğuna dair arqumentlər irəli sürməsinə baxmayaraq region ölkələri və insanlar tərəfindən bu qəbul edilmir. Buna səbəb olan əsas amil isə İsrailin Fələstin və fələstinlilərə olan münasibətindən qaynaqlanır. İsrailin Fələstin torpaqlarını ilhaq etməsi ilə bağlı xəbərlər Orta Şərqdəki ərəb xalqlarını hiddətlənmasinə səbəb olur. Hətta ərəb ictimaiyyəti İsrailin özlərinin təhlükəsizliyinə təhdid ola biləcəyini istisna etmirlər (15).

İsrailin Səudiyyə Ərəbistan ilə gizli əlaqələri olmasına baxmayaraq, rəsmi şəkildə əlaqələr qurmaması diqqət çəkən əsas məqamlardan biridir. Vəliəhd şahzadə Məhəmməd Bin Salman İsraillə münasibətlərə açıq olsa da, atası Kral Salman Səudiyyə Ərəbistanının rəsmi siyasətində Fələstin məsələsinə daha çox diqqət yetirir. Səudiyyə Ərəbistanının regionda və İslam Təşkilatı (İƏT) qruplaşması daxilində ən mühüm güc olduğunu nəzərə alsaq, bu ölkə ilə münasibətlərin normallaşması çox vacibdir. Bu regionda İsrailin legitimliyinin tanınmasında və digər ölkələrlə münasibətlərin nornmallaşmasında təkan verəcəkdir (15).

**Nəticə**

İsrail böyük mübarizələrindən sonra Orta Şərq coğrafiyasında qurulan ilk və yeganə yəhudi dövlətidir. Yarandığı gündən mümkün qədər genişlənərək çox təhlükəsiz coğrafiyaya sahib olub. Lakin məlumdur ki, Orta Şərqdə yeganə nüvə gücü olan İsrailin milli məqsədləri bu coğrafiyadan çox-çox kənardadır.

İsrail dini dövlət olsa da dünyəvi və demokratik rejimə malikdir. Elm, müasir kənd təsərrüfatı sahəsində, silahlarda istehsalında və digər texnologiyalarda qabaqcıl ölkələrdəndir.

Orta Şərqdə regional siyasət əsasən körfəz dövlətləri tərəfindən idarə edilməsinə baxmayaraq, İsrailin regionda əsas güc olaraq qəbul edilməsi İranın isə kənarlaşdırılması yöndə irəliləyiş müşahidə edilir.

Orta Şərq siyasəti son illərin ən gərgin və xaotik dövrlərindən birini yaşamasına baxmayaraq İsrail bu prosesdə nisbətən rahat görünür. İsrailin regional siyasətdə atdığı addımlar son bir neçə ildə öz xeyrinə çevirməsi açıq şəkildə müşahidə olunur. Qonşu ölkələr ilə münasibətlərin normalaşdırılması, Fələstin məsələsi, regionda təsir dairəsini artırmaq, körfəz ölkələri ilə əməkdaşlığı dərinləşdirmək, Şərqi Aralıq dənizi və İranla mübarizə kimi məsələlərdə İsrailin əvvəlkindən daha üstün mövqedə olduğunu söyləmək olar.

İsrailin qonşu ölkələrlə münasibətlərin inkişafına xüsusi diqqət yetirir. Burada Səudiyyə Ərəbistan xüsusi yer tutur çünki bu həm İsrailin legitimliyi baxımından həm də İsrail ilə Fələstin arasındakı gərginliyin azaldılması baxımından vacibdir. Bu, İsraili ərəb ictimaiyyəti arasında daha yüksək səviyyədə qəbulunu təmin edəcəkdir.

**ƏDƏBİYYAT**

1. Anoushiravan E., Middle East Middle Powers: Regional Role, International Impact, Uluslararası İlişkiler, Volume 11, No. 42, 2014, p. 29-49.
2. Barari H. Jordan and Israel: A Troubled Relationship in a Volatile Region / Hassan Barari Amman: Friedrich-Ebert-Stiftung, 2019, pp. 1-168.
3. Doster B.Bir Bölgesel Güç Olarak İran'ın Ortadoğu Politikası // Ortadogu Analiz, 2012, Cild 4, s 44-51.
4. Marie-Christine A., The Normalization of Egyptian-Israeli Relations, Arab Studies Quarterly, Published by: Pluto Journals 1983, Vol. 5, No. 3, pp. 220-236.
5. Kristian Coates U., Israel and the Arab Gulf States: Drivers and Directions of Change, A. Baker III Institute for Public Policy of Rice University, 2016, pp.1-14.
6. Menashri D. Iran, Israel and the Middle East Conflict. Journal İsrael Affairs, 2006, pp.107-122.
7. Özdemir E. Turkey's Middle East Policy in the Post-Cold War Era. History Studies // İnternational Journal of History, 2010 pp. 272-285.
8. Rezaei F. and Ronen A. Cohen, Iran's Nuclear Program and the Israeli-Iranian Rivalry in the Post Revolutionary Era, British Journal of Middle Eastern Studies Vol. 41, No. 4 (2014), pp. 442-460 Published By: Taylor & Francis, Ltd.

9. Sheharyar Khan M. The Transformation of Turkish Foreign Policy in the Middle East.. Policy Perspectives Vol. 12, No. 1, 2015, pp. 31-50.
10. Yitzkah Sh. Israil's Role in a Changing Middle East, Spring, 1982, Vol. 60, No. 4 pp. 789-801.
11. Alan M. Dershowitz, Countering Challenges to Israel's Legitimacy, pp.159-167 (https://jcpa.org/wp-content/uploads/2012/02/Kiyum-dershowitz.pdf)
12. Congressional Research Service, report 2022, pp.1-23, https://crsreports.congress.gov
13. Eisenstadt M. and Pollack D., Friends with Benefits: Why the U.S.-Israeli Alliance Is Good for America, policy analysis, 2012, pp.1-5. (https://www.washingtoninstitute.org/pdf/view/5564/en)
14. Khalid R., Internal Factors Affecting the Middle East: Trends and Implications, Policy Perspectives, January-June 2008, Vol. 5, No. 1 (2008), pp. 1-22. (https://www.jstor.org/stable/42909183)
15. Mohammed Sinan S., İsrael and a changing Middle East 2022, (https://www.orfonline.org/expert-speak/israel-and-a-changing-middle-east/?fbclid=IwAR1iTiwHt29su6G_cOFPR8_UQPTW2BIpsu10rh7vhktZefhuIidYJtnRFg)
16. Svante E. Cornell, "What Drives Turkish Foreign Policy?," Middle East Quarterly, 2012, (https://www.meforum.org/3129/turkish-foreign-policy)
17. https://jstribune.com/rabi-israel-and-the-arab-middle-east/
18. https://www.washingtonpost.com/world/2020/08/15/israels-relations middle-east-explained/

***Abstract***

***Bakhtiyar Badalov***

***İsrael's Role in the Middle East as a Regional Power***

The Middle East is one of the most important regions of the world because geopolitical situation, natural resources and etc. The Middle East is one of the most dynamic and complex part of the international system. The internal disputes and competetions, presence of non state actors and the intervention of external forces make the region a permanent source of instability and conflict.

One of the main sources of conflict in the Middle East has been the creation of Israel, which many Arab people consider illegal, and violates the rights of Palestinians. The emergence of Israel as a state in the Middle East has led to significant conflicts such as the Arab-Israeli wars.

Israel is the first and only Jewish state established in the Middle East geography after great struggles. Israel differs from all other Middle Eastern states in terms of origin, history, religion, ethnicity and socio-economic roots. Israel is more developed than other countries in the region in terms of a technological and organizational advantage. At the same time, Israel is the only country with nuclear weapons in the region.

Despite the fact that regional politics in the Middle East is mainly controlled by the Gulf states, there is progress towards the recognition of Israel as the main power in the region and the exclusion of Iran.

Israel pays special attention to the development of relations with neighboring countries. Here, Saudi Arabia occupies a special place because it is important both in terms of Israel's legitimacy and in terms of reducing the tension between Israel and Palestine. This will ensure a higher level of acceptance of Israel among the Arab community.

***Keywords:*** *Middle East, Israel, Iran's 1979 Revolution, Israel-US relations, Israil-Turkey relations, Israil-Gulf countries relations, Gulf countries, Israel-Iran relations, Saudi Arabia, Natural resources, Oil, Gas*

***Резюме***

***Бахтияр Бадалов***

***Роль Израиля на Ближнем Востоке как региональной державы***

Ближний Восток является одним из самых важных регионов мира с точки зрения геополитческого положения, природных ресурсов и т. д. Ближний Восток является одной из самых динамичных и сложных частей международной системы. Внутренние споры и соперничество, присутствие негосударственных акторов и вмешательство внешних сил делают регион постоянным источником нестабильности и конфликтов.

Одним из главных источников конфликта на Ближнем Востоке стало создание Израиля, которое многие арабы считают незаконным и нарушающим права палестинцев. Появление Израиля как государства на Ближнем Востоке привело к значительным конфликтам, таким как арабо-израильские войны.

Израиль – первое и единственное еврейское государство, созданное в географии Ближнего Востока после великой борьбы. Израиль отличается от всех других ближневосточных государств своим происхождением, историей, религией, этнической принадлежностью и социально-экономическими корнями. Израиль более развит, чем другие страны региона, с точки зрения технологического и организационного преимущества. При этом Израиль – единственная страна в регионе, обладающая ядерным оружием.

Несмотря на то, что региональная политика на Ближнем Востоке в основном контролируется государствами Персидского залива, есть подвижки в сторону признания Израиля главной державой в регионе и исключения Ирана.

Израиль уделяет особое внимание развитию отношений с соседними странами. Здесь Саудовская Аравия занимает особое место, поскольку она важна как с точки зрения легитимности Израиля, так и с точки зрения снижения напряженности между Израилем и Палестиной. Это обеспечит более высокий уровень принятия Израиля среди арабского сообщества.

***Ключевые слова:*** *Ближний Восток, Израиль, революция 1979 года в Иране, отношения между Израилем и США, отношения между Израилем и Турцией, отношения между Израилем и странами Персидского залива, страны Персидского залива, отношения между Израилем и Ираном, Саудовская Аравия, природные ресурсы, нефть, газ.*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.